**Azərbaycan Respublikasının Prezidenti**
**zati-aliləri cənab İlham Əliyevə**

**23 iyun Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə keçirilən ümumrayon yığıncaq iştirakçılarının**

## Müraciəti

**Möhtərəm cənab Prezident!**

Ötən əsrin sonlarında respublikamız müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi dövlət quruculuğu sahəsində də demokratik idarəçiliyin yaradılması, dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsi, vətəndaşların bütün ehtiyaclarının tam dolğunluğu ilə həll edilməsi vacib məsələ kimi qarşıda dururdu. Məhz Ulu öndər Heydər Əliyev bütün problemlərin həlli ilə birgə bu problemin həll olunması istiqamətində məqsədyönlü addımların atılmasını təmin etdi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanan müstəqil Konstitusiya ümumxalq səsverməsi-referendum yolu qəbul edildi. Bunun ardınca dövlət qulluğunun təşkili və təkmilləşdirilməsi, dövlət qulluqçularının sosial müdafiəsinin təmin olunması məqsədilə yeni normativ hüquqi aktlar işlənib hazırlandı. Bütün bu işlərin məntiqi davamı kimi 2000-ci ilin iyulun 21-də “Dövlət qulluğu haqqında“ Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanun dövlət qulluqçularının hüququ statusunu müəyyən etmək, onların sosial müdafiəsini gücləndirməklə yanaşı, bu şəxslərə qarşı tələbkarlığı da xeyli artırmış, onların xalqa və dövlətə daha yaxşı xidmət etməsinə, dövlət qulluğunun müasir dövrə uyğun meyarlarının formalaşmasını təmin etmişdir. Sizin sərəncamınızla 2006-ci ildən başlayaraq 23 iyun Azərbaycan Respublikasında dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd olunur.

**Cənab Prezident!**

Son on ildə Azərbaycanın dünyada analoqu olmayan dinamik inkişafı, qeyri-neft sektorunun önəmli şəkildə tərəqqisi, milli sahibkarlığın formalaşması, hər bir vətəndaşın maddi rifah halının yüksəlməsi, Azərbaycanın milli mənafeyinə cavab verən müstəqil xarici siyasətin yürüdülməsi, ölkəmizin kosmik dövlətə çevrilməsi Sizin həyata keçirdiyiniz çoxşaxəli və geniş miqyaslı qlobal strateji xəttin prioritet istiqamətləridir. Artıq Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Bu gün ölkəmiz kulturalizmin və tolerantlığın məkanı kimi mədəniyyətlə, sivilizasiyalar dialoqu ilə bağlı forumlara, iqtisadi forumlara və mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir.

**Cənab Prezident!**

Sizin biz dövlət qulluqçuları qarşısında qoyduğunuz əsas tələbləri, xalq və dövlətçiliyə sədaqətlə xidmət etmək, vətəndaşların hüquq və azadlıqlarını qorumaq, əxlaqı, mənəviyyatı, insanlarla rəftarı, qəbul etdiyi qərarları ilə rəsmi orqanlara hörmət qazandırmaq, vətəndaşların və dövlətin maraqlarını uzlaşdırmaq, dünyada gedən qlobal proseslərdən xəbərdar olmaq, informasiya texnologiyalarını, demokratik idarəçilik metodlarını mənimsəmək, müasir düşüncə sahibi olmaq kimi tələblərinizi özümüzün fəaliyyət prinsipi kimi qəbul edib daim ona əməl etməyə çalışırıq. Bu gün vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinə diqqətin artırılması Sizin biz dövlət qulluqçuları qarşısında qoyduğunuz əsas tələblərdən biridir. “Dövlət qulluqçusu xalqın xidmətçisidir” sözləriniz dövlət qulluqçusunun cəmiyyətdəki rolunu tam qiymətləndirməklə yanaşı onun üzərinə düşən məsuliyyəti daha da artırır.

**Möhtərəm cənab Prezident!**

Sizin 2013-cü ilin iyul ayında Siyəzən rayonuna etdiyiniz səfər biz Siyəzən rayonunda çalışan dövlət qulluqçuları üçün unudulmaz tarixi hadisədir. Əminik ki, Azərbaycan öz əbədi müstəqilliyinə, ərazi bütövlüyünün bərpasına dünyanın ən inkişaf etmiş ölkələri arasında layiqli mövqeyə yalnız Sizin şəxsinizdə nail olacaqdır.

Sizə möhkəm can sağlığı, ailə səadəti və müstəqil Azərbaycan Respublikasının tərəqqisi naminə apardığınız daxili və xarici siyasətinizdə yeni-yeni uğurlar arzulayırıq.

**Müraciət 23 iyun 2014-cü il tarixdə keçirilmiş yığıncaqda qəbul edilmişdir.**